


# Müdhiş şənbə gecəsinin bədii təcəssümü

## *20 Yanvar yaddaşlara musiqi və fırça ilə də yazıldı*



Bakının 20 yanvar 1990-cı il tarixində qan gölünə çevrilməsi zaman keçdikcə yaddaşlarda daha silinməz izlər salır. Günahsız insanların o şənbə gecəsində qanlarına qəltan edilməsinə "fərman" verənlər nifrətlə xatırlanır, imperiyanın diz çökməsi uğrunda əzmlə mübarizə aparan azadlıq aşiqləri - ölümün gözünə dik baxaraq şərəflə şəhidlik zirvəsinə yüksələnlər isə ehtiramla, məhəbbətlə anılır. Çünki onlar elə həmin yaşdaca daşlaşmış ömür sahibinə çevrildilər. Vətənin azadlığı uğrunda canından keçməyi şərəf bilənlərin müqəddəs məkanı olan Şəhidlər xiyabanı məhz buna görə əbədi ziyarət yerinə çevrilib...

Ulu öndər Heydər Əliyev 1995-ci il yanvar ayının 18-də Azərbaycan Dövlət İncəsənət Muzeyində keçirilən "Qanlı Yanvar" rəssamlıq sərgisindəki çıxışı zamanı demişdir: "20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir. Ona görə də qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır. Təəssüf ki, buradakı əsərlərin arasında mən belələrini görmədim. Ola bilər bu ondan irəli gəlir ki, biz Yanvar hadisələri baş verəndən indiyədək bununla əlaqədar ancaq ağlayırıq. Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər".

Tarixi hadisələr ictimai mahiyyətindən asılı olaraq, xalqın yaddaşına o zaman yazılır ki, sənət əsərlərinin də mövzusuna çevrilə bilsin. Bütün dövrlərdə, istər müharibə, istərsə də digər fəlakətləri xalq necə yaşayıbsa, onun yetirdiyi yaradıcı övladları həmin hadisələri bədii ifadə vasitələri ilə yaddaşlara yazıblar.

Xalqımızın qan yaddaşına yazılan belə hadisələr az olmayıb. 20 yanvar 1990-cı il tarixi də yaddaşlara məhz qanla yazıldı. Təbii ki, imperiya caynaqlarından qurtarmaq o qədər də asan deyildi. Azadlığın verilmədiyini və qan bahasına alındığını da bura əlavə etməklə deyə bilərik ki, 20 Yanvar xalqımızın yaşadığı müsibətlər və faciələr silsiləsindən biri olsa da, qürur və iftixar mənbəyi, haqqın hayqırtısı, milli oyanış, birlik, əsl həmrəylik günüdür!

Şənbə gecəsinin fəryadları bədii sənət nümunələrində də öz əksini tapdı. Sözün ifadə edə bilmədiyini rəssamların qan daman fırçaları cızdı, Habil Əliyevin kamanı, Kamil Cəlilovun qaboyu şəhidlərimizə hüzn dolu "layla çaldı". Bu fəryada xalq yazıçısı Əzizə Cəfərzadənin dilindən qopan ağı-bayatılar da qoşuldu: "Sən məni dəryaz kimi biç, nə qədər bacarırsan biç, amma mənim şəhidlərimin qanı torpağa toxum kimi düşüb. Hər yerdən boy verib cücərəcək:

*Arazam, keç üstümdən,*
*Keç, karvan, keç üstümdən.*
*Bu dərdi mən əkmişəm,*
*Dəryaz al, biç üstümdən".*

Həmin o müdhiş gecə xalqımızın poeziya dili Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Mədinə



Gülgün, Məmməd Aslan, Cabir Novruz, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Nüsrət Kəsəmənli, Fikrət Qoca və digər vətənpərvər söz adamlarının misralarından boy verdi, boylandı, dağı-daşı yandırdı...

Şəhidlər xiyabanını al qırmızıya bələyən qərənfillər Məmməd Aslanın qələmində ağladı. Qərənfil yağışlı, matəm baxışlı misralar anaların ağısına qarışdı:

*...Bu günahsız qanlara,*
*Bu didilmiş canlara,*
*Bu cansız cavanlara,*
*Ağla, qərənfil, ağla...*

Bəxtiyar Vahabzadənin düşmənə nifrət nidalı sözü Şəhidlər xiyabanında fəryad qoparırdı:

*...Şəhidlərin hamısı*
*bənzəyir bir-birinə,*
*bir bax qəbirlərinə!*
*Hamısı qıpqırmızı*
*qərənfilə bələnmiş,*
*Hamısı bir biçimdə,*
*bir boyda cərgələnmiş,*
*Səbəb birdir, əməl bir,*
*hədəf birdir, hədə bir!..*

Məhz bundan sonra bədii əsərlərdə 20 Yanvar şəhidlərinin ölməzliyini və müqəddəsliyini təsdiq edən obrazlar yaradıldı. Təkcə poeziyada, nəsr və ya səhnə əsərlərində deyil, incəsənətin ayrı-ayrı növlərində 20 Yanvar aparıcı mövzuya çevrildi. Rəssamlıq sahəsində bu şərəfli tariximiz bəlkə də daha canlı, qanlı və obrazlı təsvir edildi.

Dövlət mükafatları laureatı, "İstiqlal" ordenli xalq rəssamı Mikayıl Abdullayev 1992-ci ildə yaratdığı "Nakamların dəfni" əsəri ilə bir daha 20 Yanvar faciəsinin zaman-zaman unudulmayacağını göstərdi. Hər il, bir qayda olaraq, istər beynəlxalq səviyyədə, istərsə də respublika miqyasında bu mövzuya həsr edilmiş əsərlərin sərgiləri keçirildi. Həmin sərgilərin birində Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov belə deyib: "Xalq yaxşı günləri yaşadıqca faciələrinin də unudulmaması naminə onları gələcək nəsillərə çatdırmalıdır. Tarixin belə qanlı səhifələrinin yaddan çıxmaması üçün ən yaxşı vasitələrdən biri də bu əsərlərdir. Belə əsərlər nə qədər çox olarsa, həmin tarixi dünya xalqlarının diqqətinə çatdırmaq bir o qədər mümkünləşər və asanlaşar".

Yalnız bir sərgidə 20-yə yaxın müəllifin 28 qrafika və boyakarlıq, 3 heykəltəraşlıq əsəri nümayiş etdirilirdi ki, onlar vətənə, xalqa, onun tarixinə və faciələrinə həsr olunduqları üçün uşaq və gənclərə vətənpərvərlik hissi aşılayırdı.

Oğul və qızlarımız tankların, ağır texnikanın altında xıncım-xıncım olsalar da, qəhrəmanlıq obrazı yaratdılar. Bu hadisə Azərbaycan xalqının iradəsini və yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Tariximizin bu səhifəsi incəsənət əsərlərində öz əksini tapdıqca o, yaddaşlarda daha dərin izlər buraxdı və tarixləşdi, heykəlləşdi. Qürur, fəxr yerimiz olan Şəhidlər xiyabanı vətənə, torpağa, anaya, könül sevdasına məhəbbətin ünvanına çevrildi.

Görkəmli fırça ustaları Rasim Babayevin "Təcavüz", Hacırza Fərzəliyevin "Ağlı-qaralı dünya", Fikrət İbrahimovun "Gələcək naminə", Həmzə Abdullayevin "Çərxi-fələk", İsmayıl İsmayılovun "Haqq tərəzisi", "Qafar Seyfullayevin "Öncə Vətəndir...", Asim Səmədovun "Ruhlar" və s. tablolarda qanlı şənbə gecəsinin ağrı-acılı yaşantıları yaddaqalan öz bədii ifadəsini tapıb desək, daha doğru olardı.

Qrafika ustası Arif Hüseynovun "Qara tağlı natürmort", Fəxrəddin Əliyevin "Qara Yanvar" və Arif Ələsgərovun "20 Yanvar", həmçinin Koreyada keçirilən, 68 ölkədən 587 rəssamın qatıldığı 1760-dan artıq əsərin nümayiş etdirildiyi XIX Beynəlxalq Karikatura Sərgisinin mükafatçısı (birinci yerin qalibi), "Kirpi" satirik jurnalının baş rəssamı Hafiz Nəsiroğlunun əsərləri də xalqımızın imperiya təcavüzünə məruz qaldığı gecəyə həsr olunmuş bədii sənət nümunələri olmaqla yanaşı, bizi daim ayıq-sayıq olmağa səsləyir.

Kirman Abidinin 20 Yanvarla bağlı çəkdiyi plakatlar isə xüsusilə diqqətçəkəndir. Tariximizin qan yaddaşını plakatlarda əks etdirən rəssamın bədii təxəyyülü ilə sənətkarlığı üst-üstə düşərək o gecənin dəhşətlərinin səbəbkarını, cəllad və qatillərini nifrətlə xatırladır.

Xalq rəssamı Ağəli İbrahimov deyir ki, 20 Yanvar faciəsi təsviri sənətin əbədi mövzularından biridir: "Bu tarix yaddaşlardan silinməyəcək və indiyədək olduğu kimi, bundan sonra da 20 Yanvar faciəsi Azərbaycan rəssamlarının vətəndaşlıq mövqeyindən daima müraciət etdiyi mövzu olaraq qalacaq. Xalq rəssamları mərhum Mikayıl Abdullayev, Kamil Nəcəfzadə, Xanlar Əhmədov və başqaları da bu mövzuda yaddaqalan sənət əsərləri yaradıblar. Düşünürəm ki, nəinki rəssamlarımız, heykəltəraşlarımız və incəsənətin digər növləri ilə məşğul olan bütün yaradıcı insanlar hər zaman bu mövzuya müraciət edəcəklər".

Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən respublika İncəsənət Gimnaziyasının müəllimi, rəssam İlqar Əkbərov faciəyə ilk münasibət bildirənlərdəndir. O, bu mövzuya həsr etdiyi əsərini hadisələrin qaynar vaxtı, Bakı qan içində boğulanda 1990-cı ildə yaradıb. "Şəhidlər" adlanan həmin əsər R.Mustafayev adına Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir. Onun fikrincə, rəssamlıqla məşğul olan yeniyetmələrə bu mövzunun mahiyyəti izah edilməlidir ki, sonralar onların düşüncələri və təxəyyülləri əsərə çevriləndə obrazlar dolğun yaradılsın. Bu təbliğin nəticəsidir ki, rəssamlığa həvəsi olan uşaqlar da adıçəkilən mövzuya daha çox maraq göstərirlər.

Tarixi yaşadan incəsənət əsərlərində 20 Yanvar öz təcəssümünü dolğun tapıb. Respublikanın müxtəlif bölgələrində 20 Yanvar faciəsinin qurbanlarına həsr olunmuş sənət əsərləri, o cümlədən heykəltəraşlıq nümunələri olan xatirə kompleksləri ucaldılıb. Metronun "20 Yanvar" stansiyası yaxınlığında Qanlı Yanvar şəhidlərinin xatirəsinə ucaldılan memorial abidə (memarı Ədalət Məmmədov, heykəltəraşları Cavanşir Dadaşov və Azad Əliyevdir) kompleksləri və s. buna parlaq misal ola bilər.

20 Yanvar faciəsi, təbii ki, yalnız tanınmış xalq sənətkarlarının əsərlərində deyil, onların yetirmələrinin yaradıcılıq nümunələrində də öz əksini tapır. Bakıdakı 12 saylı Uşaq İncəsənət Məktəbinin şagirdlərindən Lalə Babayevanın "20 Yanvar", Fatimə Əbilovanın "Dünya göz yumur", Sevinc Məmmədovanın "Ana fəryadı", Elvin Şahməmmədovun "Sovet ordusunun Bakıya basqını", Ülkər Əmirovanın "Erməni qəddarlığı", Ülkər Əliyevanın "Erməni vəhşiliyi" və digər rəsm əsərləri bir daha onların vətənpərvər hisslərlə yaşadığını və bu mövzunun müqəddəs olduğunu təsdiqləyir. Təbii ki, belə mövzuya həsr olunmuş təsviri sənət əsərlərində, heykəltəraşlıq və memarlıq nümunələrində həm tarix yaşadılır, həm də xalqımızın qəhrəmanlığı təbliğ olunur.

*Bəşər tarixinin ən qanlı səhifələrindən biri sayılan 20 Yanvar faciəsi insanlığa qarşı təcavüzdür. Bununla yanaşı, unutmamalıyıq ki, Şənbə gecəsi qanla başlasa da, azadlığın şəfəq saçdığı günə çevrildi: imperiya cəlladlarının vəhşi simaları xalqımızın məğrurluğu, mübarizliyi ilə əriyib yox oldu. Milli istiqlalına yenidən qovuşan xalqımız onu göz bəbəyi kimi qorumaq, dövlət müstəqilliyinin əsaslarını möhkəmləndirmək üçün daha sıx birlik nümayiş etdirdi. Şəhidlər xiyabanının hər gün minlərlə insanın ziyarət yerinə çevrilməsi də bunun təsdiqidir...*

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***